**Məgər biz o günə qalmışıqmı ki, hansısa maarifləndirmə tədbirlərinin mahiyyətini dərk etməyək? Yox, qətiyyən, belə deyil! Xalqımızın tam əksəriyyəti savadlıdır və ətrafda baş verənlərin nə demək olduğunu hamı yaxşı başa düşür. Məgər biz o günə qalmışıqmı ki, dövlət qurumlarının, məhz xalqın sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirləri nəzərə almayaq? Əsla elə deyil! Azərbaycan xalqı dövlətin bütün qərar və qaydalarına lazımınca əməl etmək qabiliyyətini dəfələrlə ortaya qoyub. Bəs elə isə nə baş verir? Nə üçün bilavasitə özümüzün, ailəmizin, əzizlərimizin həyatının, sağlamlığının qorunması naminə müəyyən edilmiş qaydaları pozanlar azalmır?**



# Pandemiya qaydalarına əməl edilməməsi məsuliyyətsizlikdir

## *Özümüzü və ətrafımızdakıları qoruyaq!*

Mən iyunun 16-da "Microsoft"un təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və digər nümayəndələri arasında keçirilən videokonfransdan hazırlanmış televiziya materialına baxdım. Cənab Filip Roqun bir ifadəsi məni çox məmnun etdi: "Azərbaycanda pandemiyanın təsirinin kifayət qədər nəzarət altında olduğunu eşitdiyimə şad oldum. Mən dünya liderləri ilə əlaqə saxladığımdan bilirəm ki, bu, heç də həmişə belə olmur". Qürurverici idi.

Amma, çox təəssüf ki, həmin gün xəcalətverici bir xəbər də oxuduq. Paytaxtın hüquq-mühafizə orqanlarının yaydığı məlumatda bildirilirdi ki, iyunun 15-də – bilavasitə karantin qaydalarının sərtləşdirildiyi gün Bakı küçələrinin boşluğundan "ruhlanan" bir gənc soydaşımız heç kəsin görməyəcəyini düşünərək avtoşluq edib və dəfələrlə təhlükəli vəziyyətlər yaradıb. Polis orqanları həmin maşını "cərimə meydançası"na, sürücünü isə müvafiq ünvana aparıblar.

Həkimlərimizin, polislərimizin, dövlət qurumlarının pandemiyaya qarşı istirahət bilmədən mübarizə apardığı bir vaxtda kiminsə bütün qanunlara zidd gedərək əhlikeflik etməsi qətiyyən bağışlanası deyil. Yaxud, xəbər bülletenlərində görürük ki, kimsə metroya tibbi maskasız daxil olmaq istəyir və ona icazə verilməyəndə mübahisə edir, qalmaqal törədir. Bu adam başa düşmür ki, qoyulan qadağalar onun özü və ailəsi üçün də vacibdir. Yoluxmuş bir adamın metrodan istifadəsi zamanı bəlkə də yüzlərlə sərnişinin həyatına təhlükə yaranır. O zaman, sən, heç olmazsa, özünü, ailəni və övladlarını qorumaq üçün müəyyən qaydalara əməl etməlisən. Məgər bunu anlamaq o qədər çətindirmi ki, tibbi maskadan və digər qoruyucu vasitələrdən istifadə etməklə, kimisə – başqa adamları deyil, bilavasitə öz can-ciyərlərini qorumuş olursan.

Məşhur həkimlərdən biri sosial şəbəkədə yazmışdı ki, Azərbaycan dövləti koronavirusla mübarizədə qələbənin bir addımlığında olarkən, bəzi insanların məsuliyyətsizliyi üzündən vəziyyət qat-qat pisləşdi. Yoluxanların və ölənlərin sayı hər gün artır. Doğrudur, işğalçı ölkədə və xaricdəki bədxahlarımızdan kimlərsə Azərbaycanın bu günə düşməsini arzulamamış deyil. Amma həmin dairələrin istəyinin reallığa çevrilməsinə öz soydaşlarımız kömək etməməlidirlər.

Bu məsələyə dövlət başçımızın münasibəti də kifayət qədər aydın və konkretdir. Azərbaycan Prezidenti İlham Əliyev iyunun 9-da modul tipli üç xəstəxananın açılışı zamanı deyib ki, dezinfeksiya vasitələri artıq Azərbaycanda istehsal olunur. Eyni zamanda, Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Həmçinin biz tibbi maskaları xaricdən də idxal edirik: "Çünki tələbat artır və tələbatın artması bilavasitə məhdudlaşdırıcı tədbirlərlə bağlıdır. Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir – ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil, – bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, – gərək nəzərə alınsın: tibbi maska, bir yarım–iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb".

***Elmira HÜSEYNOVA,***
***iqtisad elmləri doktoru,***
***professor***